1:4-=.QXD 1/1/2004 9:51 AM Page 1

# KÜRD xalqı mübariz və qəhrəman xalqdır
H.Əliyev

# DÎPLOMAT

www. Diplomata-kurdi.com

№ 11 (159), 26 Mart, Adar - 1 Aprel, Nîsan - sal 2012
Ji meha şûbatê sala 2003-a tê weşandin

Həftəlik İctimai-siyasi qəzet
Rojnama heftename civakî û sîyasî

Qiyməti, Hêjaye, 40 qəpik

Bilirsən, nə etmiş kürdlər bir zaman?
Qurtarmış İslamı çox ağır dardan!
Qədim Avropanın xaçpərəstləri,
Yüz illər sındırmış göy məsçidləri.
Müsəlman keçmişin öyrənsə əgər,
Kürdün dərgahına daim baş əyər.

Səbahəddin Eloğlu


Səh. 2

## İlham Əliyev Novruz bayramı münasibətilə keçirilən ümumxalq şənliyində iştirak etmişdir


Səh. 4

## Məsud Bərzani: “Xaosu aradan qaldırın, yoxsa müstəqilliyimizi elan edəcəyik”

## РОССИЙСКИЕ КУРДЫ ОБЪЯВИЛИ ГОЛОДОВКУ
Səh. 14

## “Təhlükə İran deyil, İsraildir”
Səh. 3



Səh. 9

## ÖCALAN’SIZ ASLA


KÜRD xalqı mübariz və qəhrəman xalqdır
DÎPLOMAT
Kiçik Asiyanın qırmızı mozaikası
Mən nə üçün vuruşdum?
Səh. 3

## “Diplomat " qəzetinə yasaq qoymaq ağılsızlıqdır


Səh. 8

## Qüdsün xilaskarı Sultan Səlahəddin Əyyubi – əl-Kurdi


Səh. 12

## Îraqê Sûriyê venexwend civîna Bexdayê


Səh. 6

## DAYKA MİN KURDİSDAN


Səh. 12

## Erdogan: Bi devê Öcalan û Qendîlê xeber nedin


Səh. 16

## На Науруз Курдистан посетило 176 тысяч туристов


Səh. 6

## AĞLAYIR

1:4-=.QXD 1/1/2004 9:51 AM Page 2



# İlham Əliyev Novruz bayramı münasibətilə keçirilən ümumxalq şənliyində iştirak etmişdir

Prezident İlham Əliyev Novruz tonqalını alovlandırdı. Dövlət başçısı bayram şənliyində nitq söylədi.

**Azərbaycan Prezidenti İlham Əliyevin nitqi**

**-Əziz dostlar,**

**Hörmətli xanımlar və cənablar!**

Mən sizi və bütün Azərbaycan xalqını Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm, hər bir Azərbaycan ailəsinə səadət, uğurlar arzulayıram.

Novruz Azərbaycan xalqının ən sevimli bayramlarından biridir. Xalqımız əsrlər boyu bu gözəl bayramı qeyd edir. Hər bir ailədə Novruz əziz bayram kimi qeyd edilir. Müstəqil Azərbaycan ancaq 20 ildir ki, Novruzu dövlət bayramı kimi qeyd edir. İyirmi il ərzində bu bayram, doğrudan da, həm rəsmi bayram kimi qeyd edilir, həm geniş şəkildə, bütün ölkəmizdə hər bir Azərbaycan vətəndaşı baharın gəlişinə sevinir, hər bir Azərbaycan ailəsi bu bayram günlərində bir yerdə olur. Bir neçə il bundan əvvəl Azərbaycanda Novruz bayramının beş gün qeyd edilməsi ilə bağlı imzaladığım Sərəncamın da məqsədi məhz ondan ibarət idi ki, bu Novruz günlərində hər bir Azərbaycan ailəsi bu bayramı qeyd etsin. Şənbə və bazar günlərini də əlavə etsək, bu il bayram günləri yeddi gündür.

Azərbaycan xalqı öz milli mənəvi dəyərlərinə sadiqdir. Dövlətimiz bu dəyərlər üzərində qurulubdur. İyirmi il ərzində milli dəyərlərə münasibətimiz, milli ənənələrimizə hörmətimiz bizi daha da gücləndirdi. Bu gün müstəqil Azərbaycan bu əsaslı və güclü milli təməl üzərində öz gələcəyini qurur. Biz müasir dövlət qururuq, dünyaya inteqrasiya edirik, dünya proseslərində uğurla, fəal iştirak edirik. Ancaq çox güclü milli mənəvi dəyərlərimiz bizim üçün əsasdır.

Biz ümumbəşəri dəyərlərə sadiqik, ümumbəşəri dəyərləri bölüşürük. Milli dəyərlər isə bizim üçün həm keçmişimizə olan münasibətdir, hörmətdir, eyni zamanda, gələcəyə atılan addımlardır. Mən çox şadam ki, Azərbaycanda gənclər də milli mənəvi dəyərlər əsasında tərbiyə olunurlar. Gənclər milli ruhda böyüyürlər. Milli ruhun yüksək səviyyədə olması bizi - azərbaycanlıları bir xalq kimi daim yüksəklərə qaldıracaqdır.

Əsrlər boyu xalqımız müstəqillik arzusu ilə yaşamışdır. Biz müxtəlif ölkələrin, imperiyaların tərkibində yaşamışıq, ancaq milli mənliyimizi heç vaxt itirməmişik. Hər zaman milli dəyərlər, Azərbaycan dəyərləri bizi daha da gücləndirirdi. Xalqımız üçün ən çətin anlarda bir millət kimi özümüzü qorumaq üçün, ilk növbədə, milli dəyərlərimiz, ənənələrimiz, milli bayramlarımız, ana dilimiz öz rolunu oynamışdır.

Bundan sonra müstəqil dövlət kimi Azərbaycan yalnız inkişaf yolu ilə gedəcəkdir. Müstəqilliyimizin qısa tarixi bunu deməyə əsas verir. İyirmi il tarix baxımından kiçik bir dövrdür. Ancaq bu illər ərzində ölkəmiz çox uğurlu yol keçmişdir. Müstəqilliyimizi bərpa etdikdə Azərbaycanda gedən xoşagəlməz proseslər faktiki olaraq müstəqilliyimizi əlimizdən ala bilərdi. Ölkədə hökm sürən xaos, anarxiya, səriştəsizlik, siyasi rəhbərliyin xəyanəti ölkəmizi uçurum kənarına qoymuşdu. Ulu öndər Heydər Əliyevin Azərbaycana gəlməsi, Azərbaycan xalqının ona göstərdiyi etimad və inam vəziyyəti köklü şəkildə dəyişdirə bilmişdir. Ölkəmiz 1993-cü ildən bu günə qədər inkişaf yolunu yaşayır, beynəlxalq mövqelərimiz möhkəmlənir, daxildə vəziyyət müsbət istiqamətdə inkişaf edir. Azərbaycan dünya miqyasında ləyaqətli ölkə kimi özünü tanıtdıra bilmişdir.

İyirmi il ərzindəki uğurlar deməyə əsas verir ki, ölkəmiz bundan sonra da inkişaf edəcək və Azərbaycan dünya miqyasında daha da böyük yerə malik olacaqdır. Keçən ilin oktyabr ayında biz dünyanın ən mötəbər qurumu olan BMT Təhlükəsizlik Şurasına seçildik. Bu, deyə bilərəm ki, 20 illik müstəqil həyatımızın və uğurlu siyasətimizin məntiqi nəticəsi olmuşdur. Təsadüfi deyildir ki, BMT Təhlükəsizlik Şurasına seçilməyimiz müstəqilliyimizin bərpasının 20-ci ildönümünə təsadüf etmişdir. Bu, heç də təsadüfi deyildir. Bu, təsadüfdə əslində çox böyük məna, çox böyük rəmzi xarakter vardır. Çünki 20 il ərzində ölkəmiz o qədər inkişaf edib və dünyaya özünü o qədər tanıtdıra bilib ki, dünya birliyi bizə inandı, bizi dəstəklədi. 155 ölkənin Azərbaycana inanması və Azərbaycanı çox fəal şəkildə müdafiə etməsi bizim böyük uğurumuzdur, Azərbaycan dövlətinin böyük nailiyyətidir.

Biz artıq BMT-də fəal işə başlamışıq. Əvvəlki dövrlərdə qeyd etdiyim kimi, biz BMT Təhlükəsizlik Şurasında ədaləti müdafiə edəcəyik. Dünyada buna böyük ehtiyac vardır. Biz beynəlxalq hüququ müdafiə edəcəyik. Çünki bəzi hallarda beynəlxalq hüquq işləmir, beynəlxalq hüquq normaları tapdalanır və bu baxımdan Azərbaycan öz təcrübəsini də ortaya qoyacaqdır.

Bildiyiniz kimi, 20 ilə yaxındır ki, BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələr icra edilmir və bu ədalətsizlik bu gün də davam edir. Bəzi hallarda qəbul edilmiş qətnamələr dərhal - saatlar içərisində icra edilməyə başlayır. Bizə gəldikdə isə, 20 ilə yaxındır ki, bu qətnamələr kağız üzərində



qalıb. Bu, ədalətsizlikdir, bu, beynəlxalq hüququn pozulmasıdır və böyük dövlətlərin beynəlxalq hüququn pozulmasına laqeyd münasibətinin təzahürüdür. Biz çalışacağıq ki, bu ədalətsizliyə öz imkanlarımızla və bizi dəstəkləyən ölkələrin fəal iştirakı ilə son qoyaq. Beynəlxalq hüquq normaları bərpa edilməlidir. Bizim əzəli torpağımız olan Dağlıq Qarabağ və ətraf bölgələr işğalçılardan azad edilməlidir. Azərbaycanın dünya birliyi tərəfindən tanınan ərazi bütövlüyü bərpa edilməlidir. Azərbaycan ərazisində ikinci qondarma erməni dövlətinin yaradılmasına imkan verilməyəcəkdir. Azərbaycan suverenliyini, ərazi bütövlüyünü bərpa etməlidir və bərpa edəcəkdir.

Bizim bu mötəbər quruma seçilməyimiz, eyni zamanda, ölkədə gedən proseslərin məntiqi nəticəsidir. Biz son illər ərzində uğurlu siyasi və iqtisadi islahatlar aparmaqla ölkənin dayanıqlı inkişafına nail ola bilmişik. Bu gün Azərbaycan ilə əməkdaşlıq etmək istəyən ölkələrin, dostlarımızın sayı sürətlə artır. Bizim başqa ölkələrdə diplomatik nümayəndəliklərimizin də sayı artmaqdadır. Yəni, Azərbaycan bu gün nəinki region işlərində, dünya miqyasında müstəqil siyasəti ilə seçilən ölkədir. Biz 20 ildir, sözün əsl mənasında, müstəqil həyat yaşayırıq. Azərbaycan xalqının taleyi Azərbaycan xalqının əlindədir, xüsusilə, böyük dövlətlərin maraqlarının kəsişdiyi bir bölgədə müstəqil siyasət aparmaq böyük siyasi iradə, cəsarət və müdriklik tələb edir. Mən çox şadam ki, Azərbaycan xalqı həmişə olduğu kimi, özünə xas olan bu gözəl xüsusiyyətlərini ölkəmiz üçün ən çətin anlarda nümayiş etdirir. Biz bundan sonra da müstəqillik yolu ilə uğurla gedəcəyik. Bu gün qarşımızda bütün imkanlar, bütün üfüqlər açıqdır. Beynəlxalq mövqelərimiz möhkəmdir. Daxildə siyasət sabitdir, ictimai-siyasi vəziyyət çox yaxşıdır. Ölkədə böyük sosial proqramlar icra edilir. Bu proqramlar haqqında danışmaq üçün yəqin ki, bir neçə saat vaxt lazım olacaqdır. Sadəcə olaraq iki məqamı qeyd etmək istəyirəm. Keçən il 900 minə yaxın pensiyaçının orta pensiyası əhəmiyyətli dərəcədə, təqribən 40 faizə yaxın artırılmışdır. Bu gün Azərbaycanda orta pensiyanın səviyyəsi orta maaş səviyyəsinin 40 faizini təşkil edir. Bu, inkişaf etmiş ölkələr üçün xas olan nəticədir.

Bu yaxınlarda sovet dövrü əmanətlərinin qaytarılması ilə əlaqədar müvafiq Sərəncam imzalanmışdır. Bu da çox ciddi siyasi addımdır. Çünki müstəqil Azərbaycan dövləti keçmiş əmanətlərin qaytarılması işində hüquqi cəhətdən heç bir öhdəlik daşımır. Ancaq mən hesab etdim ki, bu, ədalətli olar və dövlət büdcəsində böyük məbləğ nəzərdə tutulur ki, biz gələn ilin sonuna qədər bütün əmanətlərin qaytarılmasına nail olaq. Bir daha demək istəyirəm ki, bu, çox ciddi sosial və siyasi addımdır və bizim nə qədər güclü sosial siyasət aparmağımızı əyani şəkildə göstərir.

Əlbəttə, biz nə sosial, nə xarici siyasət sahələrində uğurları güclü iqtisadi baza olmadan əldə edə bilməzdik. Məhz buna görə biz əsas istiqaməti bu sahəyə yönəltdik. Son 8 il ərzində iqtisadiyyatımız 3 dəfə, büdcəmiz təxminən 15 dəfə artmışdır. Bu gün biz güclü iqtisadiyyata malik olan ölkəyik. Bizim böyük valyuta ehtiyatlarımız vardır. Biz öz hesabımıza yaşayırıq, heç kimdən asılı deyilik. Əksinə, biz artıq yeni iqtisadi strategiyamızı icra edərkən xarici ölkələrə kreditlərin verilməsinə başlamışıq. Hesab edirəm ki, bu da çox gözəl göstəricidir. Bu, bizə gələcəkdə həm iqtisadi, həm də siyasi cəhətdən böyük iqtisadi və siyasi dividendlər gətirəcəkdir və artıq gətirir. Biz bu siyasəti davam etdirəcəyik, maliyyə resurslarımızı şaxələndirilmiş şəkildə lazım olan layihələrə istiqamətləndirəcəyik. İqtisadi sahədə əldə edilmiş nailiyyətlər bölgələrdə də öz təsirini göstərir. Hər bir bölgədə canlanma, inkişaf, quruculuq var, abadlıq işləri gedir. Bölgələr, rayonlar arasında sağlam rəqabət aparılır. Bu da məni çox sevindirir. Mən tez-tez bölgələrdə oluram və görürəm ki, hər bir yerdə quruculuq işlərinə böyük həvəs vardır. Hər bir rayonda sakinlər istəyirlər ki, onların şəhərləri, kəndləri daha da gözəl, daha da abad olsun.

Bir sözlə, ölkəmizdə ümumi ruh yüksəkliyi, ümumi quruculuq meyilləri çox güclüdür və bu, onu göstərir ki, Azərbaycan cəmiyyəti sağlam cəmiyyətdir. Bir daha demək istəyirəm ki, bu sağlamlığın əsas mənbəyi milli dəyərlərimizdir. Biz bu dəyərlərə sadiqik və daim bu dəyərləri uca tutacağıq. Eyni zamanda, müasir dünyaya inteqrasiyamız da çox uğurludur. Biz müstəqil dövlət kimi ümumi işlərə öz töhfəmizi veririk, regional proseslərdə fəal iştirak edirik.

Bu gün enerji, nəqliyyat layihələrinin icrasında Azərbaycan bölgədə söz sahibidir. Bizim təşəbbüsümüzlə icra edilən layihələr nəinki bölgə üçün, Avropa üçün, dünya üçün əhəmiyyətlidir. Biz bunu bilirik. Biz gücümüzü yaxşı bilirik. Bilirik ki, Azərbaycanın maraqlarını nəzərə almadan bölgədə heç bir təşəbbüs uğurla nəticələnə bilməz. Biz bu təşəbbüsləri enerji layihələrinin icrası ilə başlamışıq. Sonra isə bu, artıq nəqliyyat sektoruna təsirini göstərməyə başlamışdır. Nəticə etibarilə bu gün siyasi sahədə də istənilən təşəbbüs, bölgədə irəli sürülən təşəbbüs Azərbaycan ilə razılaşdırılmalıdır. Yaxın tarixin mənzərəsi mənim sözlərimi çox gözəl şəkildə təsdiqləyir.

Bizim siyasətimiz isə xoşniyyətlidir. Biz bütün ölkələrlə qarşılıqlı surətdə faydalı və qarşılıqlı hörmət, bir-birinin işlərinə qarışmamaq əsasında münasibətləri qururuq. Bu, ədalətli və məntiqi mövqedir. Biz heç bir ölkənin daxili işlərinə qarışmırıq. Əlbəttə, heç vaxt imkan verə bilmərik ki, kimsə bizim daxili işlərimizə qarışa bilsin. Baxmayaraq, belə cəhdlər vardır və istisna edilmir ki, bundan sonra da olacaqdır. Halbuki, Azərbaycanın uğurlu inkişafı və bizim güclü iradəmiz artıq bu səylərin səngiməsinə gətirib çıxarmalıdır. Ümid edirəm ki, belə də olacaqdır.

Hər halda seçdiyimiz yol inkişaf yoludur. Bizi bu yoldan heç kim döndərə bilməz. Heç bir qüvvə bizi seçdiyimiz yoldan çəkindirə bilməz. Çünki bu yol Azərbaycan xalqının rifahını təmin edən yoldur. Bu yol Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi üçün seçilibdir. Bu yol tərəqqi, demokratiya yoludur. Ölkəmizin bu böhranlı illərdə uğurlu inkişafı bir daha onu göstərir ki, seçdiyimiz yol düzgün yoldur.

Bu gün keçmişdə bəzən bizə tövsiyələr verən beynəlxalq maliyyə qurumları da artıq razılaşmağa məcburdurlar ki, seçdiyimiz yol düzgün yoldur. Avropada böhran davam edir. İqtisadi-maliyyə böhranının ikinci dalğası yaşanır. Bəzi ölkələr defolt ərəfəsindədir. Bəzi ölkələrdə kredit reytinqləri əhəmiyyətli dərəcədə aşağı salınır. Amma Azərbaycanın kredit reytinqləri yüksəlir. Həmin reytinq agentlikləri Avropa ölkələrinin reytinqlərini aşağı salırlar, bizim reytinqlərimizi artırırlar. Bunu görməmək mümkün deyildir. Bəzi antiazərbaycan qüvvələri nə qədər çalışsalar da, bizdə gedən inkişafı görməmək, bunu inkar etmək mümkün deyildir.

Bu inkişaf həm statistikada, həm də abadlaşan şəhərlərdə, gözəlləşən rayonlarımızda və gözəlləşən Bakıda özünü göstərir. Bakı bizim paytaxtımızdır, Bakı bizim əziz şəhərimizdir. Hər bir azərbaycanlı üçün yaşadığı yerdən asılı olmayaraq, Bakı mərkəzdir. Bu gün Bakı, doğrudan da, paytaxt şəhərinə layiq olan bir şəhərdir. Bakının tarixi gözəlliyi bu gün müasir infrastruktur layihələrinin tamamlanması ilə zənginləşdirilir. Bakının kənd və qəsəbələrinin sosial-iqtisadi inkişaf Proqramı keçən ildən icra edilir və əminəm ki, gələn il uğurla başa çatacaqdır. Bütün qəsəbələrdə sosial struktur layihələri icra ediləcəkdir. Bakı gözəlləşir, Bakıda bütün tarixi binalar bərpa edilir. Bakı bu gün parklar, bağlar, bağçalar şəhəridir. Bakı bu gün dünya miqyasında ən gözəl şəhərlərdən biridir. Bu, reallıqdır. Yəni, bütün bunları biz insanların rahat yaşaması üçün edirik. Bakıda işləmək və yaşamaq üçün bütün imkanlar vardır. Mən istəyirəm ki, Bakı dünya miqyasında ən gözəl şəhərlərdən birinə çevrilir. Əminəm ki, gün gələcək və biz deyəcəyik ki, Bakı dünyanın ən gözəl şəhəridir. Belə də olmalıdır. Azərbaycan vətəndaşları ən gözəl şəraitdə yaşamalıdırlar. Həm böyük şəhərlərdə, həm kəndlərdə. Hər bir kənd üçün indi konkret proqramlar var və onlar icra edilir.

Əziz dostlar, bu gözəl bayram günlərində hava da bizimlə həmrəydir. Bu qış çox sərt keçmişdir və mən şəxsən xatırlamıram ki, Xəzər dənizi nə vaxtsa donsun. İndi məndən yaşda daha da böyük olanlar xatırlayırlar ki, 1953-cü ildə Xəzər dənizi donmuşdur. Yəni, bu, fövqəladə bir hal idi və biz hamımız səbirsizliklə bu gözəl günəşli günləri gözləyirdik. Bu da çox rəmzi xarakter daşıyır ki, məhz bayram günündə Günəş də bizimlə bərabərdir. Mən arzu edirəm ki, bundan sonra bütün dövrlərdə daim Azərbaycan səmasında Günəş saçsın! Daim bizim yolumuzu Günəş işıqlandırsın. Çünki bizim yolumuz haqq yoludur, ədalət yoludur, inkişaf yoludur.

Bir daha sizi və bütün Azərbaycan xalqını bu gözəl bayram münasibətilə ürəkdən təbrik edirəm, hər bir Azərbaycan vətəndaşına cansağlığı və uğurlar arzulayıram. Sağ olun.

# Böyük Britaniya İsrailin İrana hərbi müdaxiləsini dəstəkləməyəcəyini bəyan edib



"İsrailin İrana hərbi müdaxiləsini dəstəkləmirik". Bunu Böyük Britaniyanın baş naziri Devid Kameron deyib.

O bildirib ki, Böyük Britaniya İsraillə dostdur. Lakin hazırkı vəziyyətdə İsrail İrana hücum etməkdən çəkinməlidir: "İsrailin ABŞ və Böyük Britaniya kimi güclü müttəfiqləri var. Lakin İsrailə də dediyimiz kimi, bu gün üçün İrana hərbi müdaxiləni dəstəkləməyəcəyik. Çünki İrana qarşı sanksiyaları daha da ağırlaşdırmaq imkanlarımız var".

Kameron İranın mübahisəli nüvə proqramı ilə bağlı da fikirlərini bildirib: "Əgər İran nüvə proqramından hərbi məqsədlər üçün istifadə etməsə, digər dünya ölkələri ilə normal münasibətlər qura biləcək". /APA/

# "Təhlükə İran deyil, İsraildir"

## *Sionist rejimi İranın nüvə proqramı ilə bağlı aparılan danışıqlar üçün əsas təhlükədir*



İsveç xarici işlər naziri Kopenhagendə keçirilən Avropa Birliyinin xarici işlər nazirlərinin keçirdiyi mətbuat konfransında bildirmişdir ki, Sionist rejimi İranın nüvə proqramı ilə bağlı aparılan danışıqlar üçün əsas təhlükədir.

Cənab Bilt həmçinin Sionist rejimini 5+1 qrupu çərçivəsində nüvə proqramı ilə bağlı İranla aparılan danışıqlara manea yaratmamağa çağırıb. "ABŞ-ın kəşfiyyat hesabatlarına əsasən, İranın nüvə silahı yaratmaqla bağlı fəaliyyət göstərmədiyi əks olunur", -deyə nazir əlavə etmişdir.

# Suriyada Novruz şənliyində 17 yaşlı gənc diri-diri yandı

## *Kürd bayrağını elektrik dirəyindən asmaq cəhdi faciəvi ölümlə nəticələnib*




Suriyada keçirilən Novruz bayramı tədbirlərində 17 yaşlı kürd əsilli oğlan 8 metrlik elektrik dirəyindən yıxılaraq ölüb. Məlumata görə, bayram tədbirinin keçirildiyi meydanda kürd bayrağını asmaq üçün yüksək gərginlikli elektrik xəttinin keçdiyi dirəyə dırmaşan Mübarək Saleh Həsəni elektrik cərəyanı vurub. Bir anda alovlanan Saleh Həsən 8 metr hündürlükdən yerə çırpılıb. Yaralı vəziyyətdə xəstəxanaya çatdırılan Mübarək Saleh Həsənin həyatını xilas etmək mümkün olmayıb.

# "Diplomat " qəzetinə yasaq qoymaq ağılsızlıqdır

## Özü də Türkiyənin tələbilə bunu etmək ikiqat ağılsızlıqdır

Bugünkü dünya düzənində düşmənlə mübarizə ictimai fikrə təsir etməklə aparılır. Mətbuat, televiziya, internet resursları və sair bu mübarizədə əsas silah formasıdır. Ona görə də düşmən saydığın kəslə, o cümlədən rəqibini sıradan çıxarmaq istəyirsənsə, düzgün, ağıllı və məqsədyönlü təbliğat qurmalı, mətbuatla işləməyi bacarmalısan. Çünki müasir dünya, ölkənin demokratik dərəcəsini bu gün mətbuata olan münasibətlə ölçür.

Bu məsələdə məni nə narahat edir. Təbii ki, Azərbaycan mətbuatının bu günü ürəkaçan olmasa da, milli zəmində qarşıdurma yaradacaq, ölkənin etnik düzənini pozacaq qəzetə, jurnala çox şükür ki, rast gəlmirik. 1-2 qəzet var ki, onların da hədəflərində Azərbaycanı parçalamaq yox, daha çox özlərini və kimliklərini tanıtmaqdır. Ki, bu da bəzən bizim xoşumuza gəlmir. Amma demokratiyadan və söz azadlığından dəm vururuqsa, ilk növbədə, biz mətbuat nümayəndələri bu oyuna riayət etməliyik. Dözüm nümayiş etdirib onların cavablarını mətbuatda verməliyik.

Amma bu gün ilginc bir xəbər oxudum. Müxalif qəzetlər bayram edəcək şəkildə manşet verdilər ki, bəs Türkiyənin təzyiqilə Azərbaycanda "Diplomat" qəzetinin nəşrinə icazə vermirlər. Sözün düzü, bu qəzeti nə oxuyuram, nə də tutduqları dəsti-xətti təqdir edirəm. Əksinə, onların fikirlərinə qarşı ciddi müxalifəm. Amma hansısa mətbuat orqanına qarşı, özü də kənardan gələn bir təzyiqlə yasaq qoymaq mənə türklər demişkən, bir az tuaf gəldi. "Diplomat" qəzetinə qarşı mübarizə aparmaq üçün bizim kifayət qədər ağlımız və resurslarımız var. Bu gün 100-dən çox iqtidaryönlü mətbuat orqanı, 10-dan da çox müxalifətə bəy tərifi verən qəzet və jurnallar var. Hələ telekanalları demirəm. Bir "Diplomat" qəzeti nədir ki, ona cavab verə bilməyək. Və Türkiyənin hansısa bir bürokratının deyimi ilə bu qəzetin çapına mane olaq. Bu qəzetin rəhbərliyi də özünü "azad söz" carçısı kimi Avropada, Amerikada reklam etdirib başına tərəfdar yığa bilsin. Gürcüstanda qəzet çap etdirib özünü inqilabçı kimi aparsın. Ki, baxın Azərbaycan dövləti mənə qadağa qoysa da, qəzetin çapına mane olsa da, mən xalqım uğrunda özümü təhlükəyə atıb mübarizə aparıram. Halbuki bu qəzetin baş redaktorunun xalqım dediyi kəslərlə nə dərəcədə yaxınlığı var, bunun özü böyük sual yaradır. Ona görə Türkiyədəki bürokratlar və siyasətçilər belə mübarizə aparandırlarsa, bütün günü erməniní təbliğ edən mirzələrinə yasaq qoysunlar. Bakıda tərəfdarı və oxucusu olmayan hansısa bir qəzeti bağlatdırmaqdansa, parlamentdə otuzdurduqları millət vəkillərinə qarşı çıxsınlar. Taa gəlib bizdə dərk edilməyən, xalq tərəfindən tanınmayan və qəbul olunmayan bir qəzetə qarşı çıxıb onu məşhurlaşdırmasınlar.



**Şöhrət El-Dəniz**

http://gundelik-baku.com/index.php?newsid=5050

# Sətri xəbərlər

* Cənubi Kürdüstanın paytaxtı Ərbil şəhərində keçirilən Novruz şənliyində prezident Məsud Barzani iştirak etmişdir. Söz alan cənab Barzani qeyd etmişdir ki, əgər İraqda demokratiya və hüquq bərqərar olmasa, Kürdüstan öz müstəqilliyini elan edəcək.
* Bütün dünya kürdləri Novruz bayramını təntənə ilə qeyd etmişlər. Xüsusən də Diyarbəkir şəhərindəki qeyd olunan və 1 milyondan artıq insanın toplanmasını qeyd etmək lazımdır.
* Ölkəmiz Azərbaycandada Novruz bayramı keçirilmişdir. Ayın 17-də "Ronahi" Kürd Mədəniyyət Mərkəzində, martın 21-də isə kürd tələbələrinin təşəbbüsü ilə bayram şənlikləri keçirilmişdir.
* İraqın milli pulu olan dinarın yeni şəkilləri hazırlanıb. Yenidən dizayn olmuş pullarda faşist Səddam tərəfindən yox edilməyə çalışılan "faeyli" kürd tayfası haqqında da məlumat olacaq.
* İraqın "İraqiya" siyasi bloku bəyanat yayıb. Onların sözlərinə görə, blok tamamilə Məsud Barzaninin siyasi prinsiplərini və təkliflərini qəbul edirlər.
* Ərəb Dövlətləri Birliyinin baş katibi Kürdüstana səfər edib.
* Şam şəhərində gedən döyüşlər nəticəsində 80-dən artıq əsgər, yüzlərlə müxalifət tərəfdarları öldürülmüşdür.
* PKK generalı Murad Karayılan: Əgər Türkiyə Suriyanın şimalındakı yeni yaradılan Kürdüstan muxtariyyatına hücum etsə, biz də öz növbəmizdə Türkiyəyə hücum edəcəyik.
* Yevgeni Primakov: Kür xalqı hələ öz müstəqilliyini elan etməyəcəklər. Bu məsələdə tələsmək lazım deyil.
* Avstraliyanın İraqdaki səfiri bildirib ki, ölkəsi və Cənubi Kürdüstan arasında ciddi iqtisadi əlaqələrin yaranması planlaşdırılır.
* Türkiyədə keçirilən Novruz bayramı zamanı 1 kürd öldürülmüşdür, 20-yə yaxını isə ağır yaralanmışdır.
* Yüz minlərlə Şiə İraqın müxtəlif bölgələrində aksiyalar keçirmişdilər. Əsas tələb isə, ölkədəki xaosu və Maliki diktaturasını aradan götürməkdir.
* Çexiyanın xarici işlər naziri Karel Şvarsenberq qeyd edib ki, o əslən kürddü. Onun ulu babaları 200 il bundan öncə Qafqazdan Çexiyaya köçüblər.
* Suriya kürdlərinin başçısı: Kürdlər artıq birləşiblər. Bunun bariz nümunəsi İraqın ardınca Suriyadada muxtariyyatın elan edilməsidir.
* Türkiyə mətbuatı: keçirilən əməliyyatlar zamanı türk ordusu 23 PKK-lını qətl etmişdir, ordu isə 8 əsgərini itirmişdir. PKK-nın nümayəndəsi isə bildirmişdir ki, döyüşlər zamanı 8 türk əsgəri öldürülmüşdür, 3-ü isə yaralanmışdır. PKK itkiləri 4 partizandan artıq deyil.
* 20-ə yaxın Avropa Parlamentinin deputatı Parlamentə müraciət edərək Parlamentdən "Türkiyədə kürdlərin acınacaqlı vəziyyətinə dair" müzakirələrin aparılmasını xahiş etmişlər.

1:4-=.QXD 1/1/2004 9:51 AM Page 4





# Məsud Bərzani: “Xaosu aradan qaldırın, yoxsa müstəqilliyimizi elan edəcəyik”

Şimali İraqdakı Kürd muxtariyyətinin başçısı Məsud Bərzani bölgədə müstəqil Kürd dövlətinin yaradılacağı haqda xəbərdarlıq edib. SİA-nın Türkiyə mətbuatına istinadən verdiyi məlumata görə, Bərzani İraqda xaosun baş alıb getdiyini, bunun üçün bütün siyasi partiyaların toplanıb bu problemi həll etməyin lazım olduğunu bildirərək "Əgər problem həll edilməzsə xalqımız son sözünü söyləyəcək", deyib.

Şimali İraqın kürd rəhbərliyinin Novruz bayramı tədbirində kürd milli marşı kimi qəbul edilən "Ey rəqib"i oxuması və Bərzaninin "Kürd bölgəsi müstəqilliyini elan etdi” deməsi gözlənilirdi. Bir müddət əvvəl Bərzani bu mövzuda bəyanatlar vermişdi və Novruz bayramında bu məsələnin ortaya çıxması yeni deyildi. Hətta kürd lider ABŞ və bir çox Avropa ölkəsini ona yardım edəcəkləri barədə razılıq verdiklərini də aqçıqlayıb. Ancaq Bərzani təxminən 5 saat davam edən bayram şənliklərində bu barədə açıq şəkildə danışmadı.

Bərzani bütün kürdlərin "Kürdlük çətiri" altında bir araya gəlməsinin lazım olduğunu, İraqın böhran və xaos yaşadığını bildirərək: "Artıq yetər demək zamanı gəlib. İraqda xaos yaşanır. Qarışıqlıqdan faydalanmaq istəyən bəziləri iqtidarlarını diktatorluğa çevirmək istəyir. Bu səbəblə İraqdakı bütün partiya və siyasilərin toplanmasını istəyirəm. Bu problemi həll edin. Əgər problem həll edilməzsə, son sözü, son qərarı xalqımız verəcək. Sonra kimsə bizə qarşı çəxməsın. Biz millətik, azad olmalı və azad yaşamalıyıq. Kimsənin zülm və təzyiqini qəbul etmirik".

# Qorbaçov siyasətə qayıdır

***SSRİ-nin ilk və son prezidenti Mixail Qorbaçov siyasətə qayıdır***



Mixail Qorbaçov bir neçə il əvvəl rəhbərlik etdiyi Rusiya Vahid Sosial-Demokrat Partiyasını bərpa edəcəyini söyləyib.

O bildirib ki, partiya geniş dairəni birləşdirə bilər. Bununla belə, Mixail Qorbaçov partiyaya rəhbərlik etməyə hazırlaşmadığını, ancaq onun bərpasına aktiv kömək edəcəyini bəyan edib. Artıq biznesmen Aleksandr Lebedev özünün və tərəfdarlarının Mixail Qorbaçovu dəstəkləməyə hazır olduğunu açıqlayıb.

# Almaniyada Ərdoğanın yürütdüyü siyasətə qarşı etiraz aksiyası keçirilib

Almaniyanın Bohum şəhərində Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın yürütdüyü siyasətə qarşı keçirilən etiraz aksiyasında əksəriyyəti erməni, kürd və ələvilər olmaqla 25 minədək nümayişçi iştirak edib.

SalamNews-un “EuroNews”a istinadən verdiyi xəbərə görə, Türkiyənin baş naziri “Der Şteyger” Beynəlxalq Liderlik Mükafatının verilməsində iştirak etmək üçün Almaniyaya səfər etməli idi. Əfqanıstanda türk hərbçilərin olduğu helikopterin qəzaya uğramasını əsas gətirən baş nazir, mükafatın təqdimetmə mərasiminə gəlməkdən imtina edib.

“Almaniyada biz əcnəbiyik. Lakin biz Türkiyədə də əcnəbi hesab olunuruq. Biz, kürdlər və ələvilər, hara gedəcəyimizi bilmirik”, - nümayiş iştirakçıları deyiblər.

Tədbir yerli stadionda baş tutub. Onlar Ərdoğana mükafatın təqdim olunmasının “Türkiyədə yaşayan




milli azlıqlara zərbə” olduğunu bəyan ediblər. Nümayişçilər türk nazirin kürd və ələvilərlə sülh əldə olunmasında göstərdiyi səylərin kifayət etmədiyini bəyan ediblər.

Bildirək ki, Ərdoğana mükafatın verilməsini onun Almaniya ilə Türkiyə arasında əməkdaşlığın inkişafına verdiyi töfhələrlə əsaslandırıblar.



# İraqda partlayışların qurbanlarının sayı artmaqda davam edir

## ***Terror aktları 5 şəhərdə törədilib***

İraqın bir neçə şəhərində törədilmiş partlayışlar nəticəsində azı 44 nəfər ölüb, 180-dən çox adam yaralanıb. Əvvəlcə Kərkükdə polis məntəqəsi və mağazalar qarşısında 3 avtomobil partladılıb. Azı 13 nəfər ölüb, 40-dək adam yaralanıb. Bundan başqa, Kərbəla şəhərində izdihamlı alış-veriş məntəqəsi və restoran qarşısında 2 avtomobil partlayışı nəticəsincə azı 13 nəfər ölüb, 50-dən çox adam yaralanıb. Paytaxt Bağdad da daxil olmaqla 5 şəhərdə törədilmiş partlayışlar nəticəsində əsas hədəf polis əməkdaşları olub. Terror aktları koalisiya qüvvələrinin 2003-cü ildə İraqda hərbi əməliyyatlara başlamasının 9-cu ildönümündə törədilib.

# Xalq şairi Səməd Vurğunun doğum günüdür

## ***Böyük şairin anadan olmasından 106 il keçir***



Bu gün Azərbaycanın ilk Xalq şairi, bahar təravətli şeirlərini bütün azərbaycanlıların əzbər bildiyi Səməd Vurğunun doğum günüdür. Baharın ilk günündə, Qazax rayonunda dünyaya göz açan böyük şairin anadan olmasından 106 il keçir.

Səməd Vurğunu Azərbaycan xalqına sevdirən onun şeirlərindəki sadəlik, səmimilik, xalq dilinə yaxınlıq, lakin bütün bunlarla yanaşı dərin mənalılıqdır. Onun “Azərbaycan” şeiri ilə dillər əzbəridir.

Səməd Vurğun bu dünyada cəmi 50 il yaşayıb. Onun ədəbi irsi özündən sonrakı Azərbaycan poeziyasına böyük təsir göstərib. Xalq şairi baharda doğulduğu kimi, elə 1956-cı ilin baharında da dünyasını dəyişib.

# Şakira kürdcə oxuyacaq

## ***Sənətçi Hələb qətliamını qınamaq üçün bu addımı atıb***

Dünyanın ən məşhur müğənnilərindən biri olan Şakira kürd dilində mahnı oxuyacaq. ANS PRESS-in CNN Türkə istinadla verdiyi məlumata görə, o, Hələb qətliamını qınamaq üçün albomunda kürd dilində iki mahnıya yer verəcək.

Mahnıları Şakira və kürd sənətçisi Hemin Xalid 3 dildə - kürd, ingilis və ispan dillərində ifa edəcəklər.

Qeyd edək ki, 16 mart 1988-ci ildə Səddam Hüseynin əmriylə törədilən “Hələb Qətliamı”nda 5



min kürd öldürülmüşdü. Əksəriyyətinin qadınlar və uşaqlar olduğu qurbanlar kimyəvi silahla qətlə yetirilmişdi, 15 min insan isə yaralanmışdı. Səddam Hüseyn qətliama səbəb kimi İraqın şimalındakı tayfaların İrana yardım etməsini göstərmişdi.

1:4-=.QXD 1/1/2004 9:52 AM Page 5



# Azərbaycanın sovetləşməsi və Qarabağın qara günləri



**Cəmil HƏSƏNLİ**
*Tarix elmləri doktoru, professor*

***"Media forum" saytı tarixçi alim Cəmil Həsənlinin "Azərbaycanın sovetləşməsi və Qarabağın qara günləri (1920-1923)" araşdırmasını oxuculara təqdim edir.***

**Əvvəli ötən saylarımızda**

Bağırov başdan-başa müsəlmanlardan ibarət olan Şuşa şəhərinin Dağlıq Qarabağın tərkibinə verilməsini səhv addım hesab edirdi. O yazırdı: "Xankəndi, Şuşa və Abdallar ətrafında 8 min əhalisi olan Xəlfəli, Zarıslı, Müsəlmanlar və digər bir sıra müsəlman kəndləri var ki, onları Abdallardan idarə etmək daha asandır, nəinki Xankəndidən. Bu müsəlman kəndləri yalnız ona görə Dağlıq Qarabağa verilib ki, həmin kəndlərin arasında 1150 nəfərə yaxın ermənin yaşadığı Qaladərəsi kəndi yerləşir. Bütün bu ərazilər nədənsə Xankəndiyə birləşdirilib".

Kolanı kəndi ilə Sarov kəndi arasında münaqişəyə toxunan Bağırov izah edirdi ki, qarışıqlıq dövründə Cavanşir qəzasında mərkəzi orqanların bir sıra qərarları ilə Kolanı müsəlmanları Sarov erməni kəndini tutdular, lakin sonra onlar tutduqları əraziləri boşaldıb öz yerlərinə köçdülər, erməni sarovlular da öz növbəsində kolanıların tutduqları yerlərini boşaltmalı idilər.

Bağırov yazırdı: "Bizim işçilərin işə cinayətkar münasibəti nəticəsində sarovlular öz yerlərinə qayıtmaq əvəzinə onların bir hissəsi kolanıların torpaqlarında qaldı, bir hissəsi isə Sarova qayıtdı. Beləliklə, 5 min kolanılı yerləri müəyyən olunmadan qalmaqdadır. Kolanılar Qarabağın ən narahat tayfalarından biridir və əgər onlar indiyə qədər susublarsa, bu ancaq ona görədir ki, məsələnin hakimiyyət tərəfindən ədalətli həllini gözləyirlər".

Öz xidməti məlumatında Bağırov daha ciddi bir məsələyə də toxunurdu: "Ağdam-Qaryagin yolu üzərindəki Xanabad ərazisində qədim zamanlardan bəri Xocalı, Muğanlı və digər müsəlman kəndləri yerləşiblər, onlarla qonşuluqda eyni zamanda ermənilər də yaşayıblar. Qırğınlar zamanı bütün bu kəndlər - həm erməni kəndlər, həm də müsəlman kəndləri - dağıdıldı və əhalisi qaçdı. Son vaxtlar onlar hamısı qayıdırlar, lakin onlara torpaq sahəsi ayrılması məsələsində cinayətkar səhvlərə yol verilib. Hətta müsəlman qəbiristanlıqlarını ermənilərə verməkdən belə çəkinməyiblər və indi müsəlmanların torpaqlarını qətiyyən o torpaqlara aidiyyəti olmayan ermənilər əkirlər, müsəlman kəndləri isə dayanıb bu məsələnin həllini gözləyirlər".

***

Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin 7 iyul qərarından sonra belə narazılıqların kütləvi xarakter daşımasına baxmayaraq uzun sürən müzakirələrdən sonra axır variantı M.C.Bağırov, T.Əliyev və A.Karakozov tərəfindən redaktə edilən "Muxtar Qarabağ Dağlıq Vilayətinin əsasnaməsi" 1924-cü ilin noyabr ayında keçirilən Azərbaycan Sovetlərinin Mərkəzi İcraiyyə Komitəsinin plenumunun 2-ci çağırış 4-cü növbəti sessiyasının müzakirəsinə verildi və Mərkəzi İcraiyyə Komitəsinin katibi Mahmud Xanbudaqov əsasnamə haqqında məruzə etdi. Bu məruzə ilə bağlı qərar verildi ki, əsasnamə baxılmaq üçün Mərkəzi İcraiyyə Komitəsinin Rəyasət Heyətinə verilsin.

Elə həmin ayda da əsasnamə mətbuatda dərc edildi. Onun birinci maddəsində təsbit edilirdi ki, "Muxtar Qarabağ Dağlıq Vilayəti Azərbaycan SSR-in tərkib hissəsidir".

İkinci maddəyə görə, MQDV-də kargüzarlıq və məhkəmə işləri, məktəblərdə təlim ana dilində aparılmalı idi.

Üçüncü maddəyə görə, MQDV Azərbaycanın respublika orqanlarının işində proporsional prinsip üzrə iştirak etməli idi.




Əsasnamədə göstərilirdi ki, vilayətin dövlət, ictimai idarələrində və təşkilatlarında ümumi istifadə dili erməni əhalisinə münasibətdə erməni dili, türk əhalisinə münasibətdə isə türk dilidir.

***

Muxtar vilayətin əsasnaməsini hazırlayan komissiyanın təklifi ilə 1923-cü ilin iyul ayında Şuşa, Cavanşir və Qubadlı qəzalarından 169 yaşayış məntəqəsi onun tərkibinə daxil edilmişdi. 1924-cü ilin noyabrın 26-da dərc edilmiş əsasnaməyə görə isə Muxtar Qarabağ Dağlıq Vilayətinin tərkibinə Şuşa qəzasının Şuşa və Xankəndi şəhərləri daxil olmaqla 115 kəndi əhatə edən 16 kənd cəmiyyəti, Cavanşir qəzasının 52 kəndi əhatə edən 6 kənd cəmiyyəti, Qaryagin qəzasının 30 kəndi əhatə edən 3 kənd cəmiyyəti, Qubadlı qəzasının Qaladərəsi kənd cəmiyyəti salınmışdı.

Beləliklə, Muxtar Qarabağ Dağlıq Vilayətinin tərkibinə daxil edilən yaşayış məntəqələrinin sayı 198-ə çatdırıldı. Lakin ermənilər heç vaxt onlara edilən güzəştlərlə, Dağlıq Qarabağa geniş muxtar qurum statusu verilməsi ilə kifayətlənmədilər. A.Karakozov Azərbaycan KP MK-nın katibi S.Kirova yazırdı ki, "Ədliyə Komissarlığı kollegiyasının qərarı ilə Naxçıvanda Ali Məhkəmə təşkil olunur, biz də isə yox. Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin Qarabağda Ali Məhkəmənin şöbəsinin açılması haqqında dekreti mövcuddur. Mənim fikrimcə, bundan geri çəkilmək siyasi baxımdan münasib deyil. Digər tərəfdən Qarabağ muxtar vilayət adlansa da, öz konstitusiyasının məzmununa görə, Naxçıvan diyarından heç nə ilə fərqlənmir. Ona görə belə hesab edirəm ki, Naxçıvan diyarına aid bütün qərarların Qarabağa da şamil edilməsi məqsədəuyğun olardı".

1923-cü ilin avqust ayının 1-də Mərkəzi İcraiyyə Komitəsinin Rəyasət Heyətində Piricanın Kürdüstan qəzasının, Ağdam şəhərinin Ağdam qəzasının mərkəzi hesab edilməsi və Cəbrayıl qəzasının mərkəzinin Qaryagindən Cəbrayıla keçirilməsi haqqında Rəyasət Heyətinə tövsiyə verildi. Avqustun 6-da Azərbaycan MİK-in Rəyasət Heyəti Ağdam mərkəz olmaqla Ağdam qəzasının, Cəbrayıl mərkəz olmaqla Cəbrayıl qəzasının və Pirican mərkəz olmaqla Kürdüstan qəzalarının inzibati-ərazi bölgüsünü təsdiq etdi.

1923-cü ilin sentyabr ayının 18-də Manusyanın sədrliyi və Ter-Zaxarovun katibliyi ilə keçirilən AK(b)P-nin Qarabağ Vilayət Komitəsinin iclasında Xankəndi şəhərinin adının dəyişdirilməsi məsələsi müzakirə edildi. İclasın qərarında deyilirdi: "Stepan Şaumyanın və 26 Bakı komissarlarının xatirəsini yad etmək məqsədi ilə Xankəndi şəhəri Stepanakert adlandırılsın". Elə həmin gün Muxtar Qarabağ Dağlıq Vilayəti Mərkəzi İcraiyyə Komitəsinin qərarı ilə Xankəndi şəhərinin adı dəyişdirilib Stepanakert qoyuldu. Azərbaycan rəhbəriyi bu dəyişikliyi "Stepankənd" kimi təsəvvür etsə və hətta bir sıra rəsmi sənədlərdə bir müddət Xankəndini "Stepan kənd" kimi adlandırsa da, ermənilər şəhərin adını "Stepanakert" kimi rəsmiləşdirdilər.

***

Qarabağ muxtariyyətini təbliğ etmək, əhali içərisində izahat işi aparmaq məqsədi ilə Azərbaycan rəhbərliyi yerlərdə təbliğat kampaniyasına başlamışdı. 1923-cü ilin avqust ayının 12-də keçirilən Qarabağ kəndlilərinin ilk toplantılarının birində gündəliyə iki məsələ qoyulmuşdu: Dağlıq Qarabağın muxtariyyəti və Şaxsey-Vaxsey haqqında. 1923-cü ildə başlayan və Azərbaycanın taleyində və tarixində Kərbəla müsibətindən də ağır bir hadisəyə çevrilən həmin Şaxsey-Vaxsey hələ bu gün də davam etməkdədir.

Beləliklə, Zaqafqaziyada sovet hakimiyyətinin ilk illərində Dağlıq Qarabağ ərazi məxsusluğu uğrunda mübarizəyə belə yekun vuruldu. Azərbaycana rəhbərlik edən Sergey Kirov AK(b)P-nin 1924-cü ilin may ayında keçirilən VI qurultayında Dağlıq Qarabağa muxtariyyət verilməsi ilə bağlı deyirdi: "Bizim bu sahədə diqqəti cəlb edən ən böyük uğurumuz budur ki, tam olmasa da, hər halda Qarabağ məsələsi deyilən məsələ əhəmiyyətli dərəcədə həll edildi. Bu məsələ Zaqafqaziya Federasiyası tərəfindən diktə edilən məsələlər sırasına daxil idi".

Nəriman Nərimanov bu prosesi təhlil etdikdən sonra 1924-cü ilin may ayının 27-də yazırdı: "Dağlıq Qarabağ Mirzoyanın güclü təsiri altında muxtar vilayət elan edilib. Mənim vaxtımda bu mümkün olmamışdı, ona görə yox ki, mən bu muxtariyyətin əleyhinə idim, sadəcə olaraq ona görə ki, erməni kəndlilərinin özləri bunu istəmirdilər. Mirzoyan bu müddət ərzində erməni daşnak müəllimlərin köməyi ilə zəmin hazırladı və məsələni Zaqafqaziya Diyar Komitəsində keçirdi".

Nəriman Nərimanov yaxşı başa düşürdü ki, Azərbaycanın başına gələn müsibətlər bununla bitmir, Dağlıq Qarabağa muxtariyyət verilməsini o haqlı olaraq Azərbaycanın fəlakətlərinin sonu deyil, başlanğıcı hesab edirdi və yazırdı: "Daha sonra Gəncənin dağlıq hissəsi məsələsi gəlir... Azərbaycanda daşnak siyasəti tam gücü ilə həyata keçirilir. Mənim zərrə qədər də şübhəm yoxdur ki, Serqo və Stalinin simasında AKP MK biz türklərə etibar etmir və Azərbaycanın taleyi erməni daşnaklarına tapşırılır".

Qarabağın dağlıq hissəsinə muxtariyyət verilməsi ilə başlanan uzunmüddətli faciənin kökündə də məhz sovetləşmədən sonra Azərbaycanın taleyinin, N.Nərimanovun dili ilə desək, yadlara etibar edilməsi ilə bağlı idi. Bu acınacaqlı hadisənin nümunəsində Azərbaycan dövlətçiliyinin altına "gec partlayan" mina basdırıldı və saat mexanizmi də hərəkətə gətirildi ki, Rusiyanın Qafqazı tərk etdiyi məqamda yenidən partlayış olsun. Serqo Orconikidzenin hələ 1920-ci ilin iyul ayında irəli sürdüyü "Qarabağda muxtariyyət elan edib erməni əhalisini təşkilatlandırmaq" ideyası son nəticədə zamanın "sınağından" çıxdı və Qarabağ məsələsi yeni dövrdə, sovetlərin dağılmasından sonrakı dövrdə regiona nəzarət baxımından Rusiyanın əlində güclü nəzarət mexanizminə çevrildi.

**Ardı var**

1:4-=.QXD 1/1/2004 9:52 AM Page 6






### NECƏ SATIM

***(Ölüm yatağına düşən şuşalı qarının dərman pulundan ötrü yeganə Qarabağ xalçasını satmaq istəyən gözüyaşlı qızına dediyi son sözləri)***

Burda Qarabağı toxumuşam mən,
Bu gül dənizini mən necə satım?
Burda naxış-naxış yanan qəlbimin,
Odunu-közünü mən necə satım?

Xalçadan boylanır xarıbülbülüm,
Yarı qızılgülüm, yarı bülbülüm.
Oxuyur gül üstə sarı bülbülüm,
Şuşamın yazını mən necə satım?

Dedim qoy tanıtsın öz ustadını,
Verdim bu gözələ ömrün dadını.
Kəsdim, «Cıdır düzü» qoydum adını,
Bəs Cıdır düzünü mən necə satım?

Baş-başa dayanıb qartallı dağlar,
Baxan vəcdə gələr, zövqündən ağlar.
Burda Molla Pənah nəğməsi çağlar,
Vaqifin sözünü mən necə satım?!

Ağ bulud altında şahinlər uçur,
Yaşıl talalarda əliklər qaçır.
Yayda yuxusundan təzə göz açır,
Qırxqız nərgizini mən necə satım?1

Dağlar cilvələnir min bir boyada,
Bax çıxan günə də, batan aya da.
Tarix kitabımız bu sal qayada
Nahaq qan izini mən necə satım?
Əksini çəkmişəm Turşsu dağının,
Cabbar oylağının, Xan oylağının.
Kirsin, Ziyarətin gəlin çağının
Gülər bənizini mən necə satım?

Qızım, hər əzaba, hər cəfaya döz,
Qoy bir də dilinə gəlməsin bu söz.
Axır yamacların suları göz-göz,
Bulağın gözünü mən necə satım?

Sənə qurban olum, ümidlə yaşa,
Bir gün diləklərin gələcək başa.
Qarabağ behiştdir, paytaxtı Şuşa,
Behişt mərkəzini mən necə satım?

Baxa bilməmişəm gözüm dolusu,
Nə deyər bu yurdun eli-ulusu?
Mənə yer üzüdür vətən xalısı,
Bütün yer üzünü mən necə satım?!

*12.04.1995*

### ÇIXAYDIM LAÇINDA İŞIQLI DAĞA

Çıxaydım Laçında İşıqlı dağa,
O güzgü göllərin sonalı vaxtı.
Yığaydım başıma oğul-uşağı,
Quşların analı-balalı vaxtı.

Dağların qoynundan əlim üzülü,
Hər günüm həsrətin neçə yüz ili.
Sürünü görəydim əmlik quzulu,
Naxırı buzovlu-danalı vaxtı.

Qatarla gələydi qızlar bulağa,
Çiçək düzüləydi saça, buxağa.
Həvə tappıltısı düşəydi dağa,
Bizim alaçığın hanalı vaxtı.

At minib, doyunca gəzəydim mən də,
Bəzən də azaydım dumanda-çəndə.
Yayın axırında dönəydik kəndə,
Xırmanın xəlbirli-şanalı vaxtı.

Dünyanı duyaydım ömrün barında,
Eşqin ilqarında, etibarında.
Badə qaldıraydım toy mağarında,
Oynayan əllərin xınalı vaxtı.

*8.02.96*

### NEÇƏ İL AĞLAR

Məğrur İşıqlının zirvələrində,
Məndən küsüb gedən bir könül ağlar.
Qoşular ot basan həzin bulağa,
Baxar el yoluna, hey dil-dil ağlar.

Ocaq daşlarından qalxar nalələr,
Yanıb ləçək tökər qızıl lalələr.
Qayalar döşündə ağ şəlalələr
Gündüz bəmdə dinər, gecə zil ağlar.

Laçın ad almışdı mərdanəlikdə,
Ellər ocağına pərvanəlikdə.
İndi o dəhşətli viranəlikdə
Baxar bayquşlara, qızılgül ağlar.

Hanı bu dağların xoşbəxt elləri,
Qanlı göz yaşıtək axır selləri.
Qırxqızın, Murovun çənli belləri
Qeyzindən başına tökər kül, ağlar.
Məgər mehvərindən çıxdı kainat,
Dönməzmi dağlara əzəlki həyat?!
Dağ oldu köksündə yolları qat-qat,
Neçə il ağlamış, neçə il ağlar?!

Tarixin alnından getməz bu ləkə,
Xəyanət toruna düşdü bir ölkə.
Xəzər sahilində ah çəkə-çəkə,
Qoca Kürdoğlutək bir zəlil ağlar.

### DOLAMAÇARX

***Mənim adım dərdli dolab,***
***Suyum axar yalab-yalab.***
***Yunus İmrə***

Dolaba söz qoşan dədə,
Cahanın çarxıdır dolab.
Çəkdiyi su könül yaxır,
Şeytanın çarxıdır dolab.

Yaman dərinmiş bu quyu,
Div ağzından çıxır suyu.
Atəşdir dövrəsi, qıyı,
Dövranın çarxıdır dolab.

Haqsız olan haqqı yenib,
Ədalətin şamı sönüb.
Yaxşılar xülyaya dönüb,
Yamanın çarxıdır dolab

Kəndiri bir uzun ilan,
Fışıldayır zaman-zaman.
Su yerinə çəkdiyi qan,
Yalanın çarxıdır dolab.

Kim qurdu belə dolabı,
Nə vaxt qırılar tənabı?!
Çəkdiyi nifaq şərabı,
Zamanın çarxıdır dolab.




### AĞLAYIR

Yuxuda çıxmışdım ulu dağlara,
Gördüm dağlar mənə baxıb ağlayır.
Sarıyerdə olan o yaylaqlara,
Qəlbimi odlara yaxıb ağlayır.

Qəmgin görünürdü Dəlidağımız,
Qoçdaşın yanında o yaylağımız.
Sərin axan o Ceyran bulağımız,
Gözünə eynəyi taxıb ağlayır.

Yerində dayanıb İsa bulağı,
Yaman boşalıbdır həm solu-sağı.
Qalmayıb dağlarda moruğun ağı,
Qırxqız dağı şimşək çaxıb ağlayır.

Aydın Baba ilə gəzdiyim yerlər,
Oraya getməyə qalmayıb hünər.
Çəkilib ortaya tikanlı çəpər,
Səkli bulaq qəmgin axıb ağlayır.
Üzeyirə baxır şair Natəvan,
Vaqif tamam susub, o dili rəvan.
Baxdı həsrət ilə Milli Nəriman,
O Cıdır düzünə çıxıb ağlayır.

***29.01.2011.***

### OLMUR

Gecələr xəyalım uçur dağlara,
Dağları yadıma salmasam, olmur.
Yanan ürəyimi bükür ağlara,
Könlümün simini çalmasam, olmur.

Xəyalım dolanır Qırxqız dağını,
Xəlfəlidə olan şəkli bulağını.
Dərir dağlardakı Morux ağını,
Keçmiş xəyallara dalmasam, olmur.

Yuxuda gəzirəm Qoçdaş dağında,
Yuyunuram o Güyran bulağında.
Hərdən də o Laçın oylaqlarında,
O gözəl yerlərdə qalmasam, olmur.

Yuxudan oyatmaq istəmir ürək,
Xəyallara dalmaq, de, kimə gərək.
Qarabağı almasam haramdı çörək,
Mütləq o yerləri almasam, olmur.

Cavan çağlarımda gəzdiyim yerlər,
Gəzdikcə dağlarda görürdüm nələr.
Dəlidağ, Keytidə ceyranlar mələr,
Nərimanam, zəfərlər çalmasam, olmur.

***24.07.2010.***




### DAYKA MÎN KURDÎSDAN

Dîroka te ez vedikim belg û belg,
Wek te kesî qet nedane şêr, leheng.
Îro dîsa ser te bûne qal û ceng,
Îdî bese, bibî kole, Kurdistan,
Dora teye, neyar qut ke, ez heyran.

Mêzopotam axa teye, kubar be,
Akkad, Kardûk gelê tene, kubar be,
Agir, alav, rewşa tene, kubar be,
Îdî bese, bibî çar par, Kurdistan,
Dora teye, neyar redke, ez heyran.

Kawe, Guhderz, Rustemê Zal te da ne,
«Kal Avêsta», «Cejna Newroz» te da ne,
«Mem û Zîn»ê, «Zembîlfroş» te da ne,
Îdî bese, bibî bêzar, Kurdistan,
Dora teye, neyar alt ke, ez heyran.

Feqî, Xanî, tacê zêrin, şa bibe,
Şer Sulheddîn lawê teye, şa bibe,
Xwedê Apo te ra daye, şa bibe,
Îdî bese, par-par bibî, Kurdistan,
Dora teye, neyar ker ke, ez heyran.

Nav gelan da, gelê mêrxas gelê te,
Nav zaran da zarê şirîn zarê te,
Vê dunê da zulma giran para te,
Îdî bese, pêpez bibî, Kurdistan,
Dora teye, neyar xinc ke, ez heyran.

Xêynî neyar, te naz dike tew alem,
Zîyaretî, tiverikî, nolî «Zem-Zem»,
Heta kengê nav gelada bihelin em,
Îdî bese, sêfîl bibî, Kurdistan,
Dora teye, neyar qetke, ez heyran.
